Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Keçmiş separatçı bölgədə hüquqi dövlət quruculuğu başladı...

**Azərbaycan dövlətinin öz torpaqları üzərində suverenliyinin tam bərpa etməsi prosesini izləyirik. Uzun illər separatçıların yuva qurduğu Xankəndi və ətraf ərazilərdə dövlətimizin suverenliyinin təmin olunmasında problemlər vardı.**

İşğal altında olan ərazimizdə kök salmağa çalışan separatçılar qondarma "dövlət", qondarma "parlament", "prezident adminstrasiyası", "nazirliklər", müxtəlif "rəsmi qurumlar" yaratmışdılar. Azərbaycanın davamlı çağırışlarına baxmayaraq öz havadarlarına arxalanan separatçılar orada çox qanunsuz əməllərlə məşğul olurdular. Acı da olsa deməliyik ki, torpağımızda onların əski parçası dalğalanırdı.

2020-ci ilin 27-də başlayan Ermənistanın hərbi əməliyyatlarına qarşı başlayan və həmin ilin 9-10 noyabr tarixində Azərbaycanın qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra da Azərbaycan Qarabağdakı separatçılara mesajlar göndərdi ki, silahı yerə qoyub təslim olsunlar, sadə erməniləri boyunduruq altında saxlamaqdan əl çəksinlər. Amma separatçılar yenə də təxribatlarını davam etdirdi. Nəticədə də lokal antiterror tədbirləri keçirildi və separatçıların yuvası tamamilə dağıdıldı. Hazırda separatçı liderlərin bir neçəsi Bakıya gətirilib və barələrində məhkəmə hökmü çıxarılıb.

### Xankəndidə hüquqi dövlət quruculuğuna start verildi...

Lokal antiterror tədbirlərindən sonra Azərbaycan öz torpaqları üzərində tam olaraq suverenliyini bərpa etdi, hazırda o torpaqlarda dövlətçiliyinmizin simvolu olan üçrəngli Azərbaycan bayrağı dalğalanır. Azərbaycan Xankəndidə suverenliyini bərpa etdi, artıq Qarabağda da geniş mənada dövlət quruculuğu prosesi gedir, vətəndaş cəmiyyəti formalaşacaq.

Məlum olduğu kimi, Xankəndidə Azərbaycanın bu dövlət qurumları fəaliyyətə başlayıb. Antiterror tədbirlərindən sonra Qarabağ iqtisadi rayonunun erməni əhalisinin yaşadığı ərazilərində yeniliklər yaşanır. Ekspertlər qeyd edirlər ki, separatçıların təslim olmasından sonra bölgənin təmizlənməsi və mərkəzi hakimiyyətin bərpası istiqamətində ciddi işlər görülüb. Artıq Xocalı, Xocavənd, keçmiş Ağdərə rayonu və Xankəndidə Azərbaycanın suverenliyi bərpa edilib. Hazırda mərkəzi hakimiyyətin bərpası prosesi istiqamətində intensiv işlər həyata keçirilir. Azərbaycanın bir sıra qurumları ərazidə öz fəaliyyətlərinə başlayıblar.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasınn Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərsu, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) Xankəndində fəaliyyətə başlayan dövlət qurumlarımızdır. Yeri gəlmişkən, Qarabağda yaşayan ermənilər arasında artıq Azərbaycan vətəndaşlığı almaq üçün müraciət edənlər var.



### "...Suverenliyimizi tam təmin etdik"

Mövzu ilə əlaqədar Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri Xəyal Bəşirov "Bakı-Xəbər"ə şərhində "Azərbaycan İkinci Qarabağ müharibəsində döyüş meydanında qalib gəldikdən sonra düşmənin və onun havadarlarının siyasi-diplomatik müstəvidə Azərbaycana qarşı apardığı mübarizədən də qalib çıxdı. Qeyd etdiyiniz kimi, artıq separatçı, qondarma rejimin sonuna çıxmaqla biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin etdik. Bu bizim üçün çox önəmlidir. 30 illik mübarizəmizin məqsədi elə bununla bağlı idi. Biz ərazimizin bir hissəsinin işğaldan azad edilməsi, bir hissəsinin isə nəzarətimizdən kənar qalması ilə barışmamışdıq, heç cürə də barışa bilməzdik. Bununla bağlı Prezident İlham Əliyevin mövqeyi vardı. Təbii ki, orada mina amilini istisna etsək, mina amilini nəzərə almasaq, dövlət Azərbaycanın bütün ərazilərində dövlət qurumlarının səlahiyyəti ilə bağlı nəzarəti tam həyata keçirir. Bu da onu deməyə əsas verir ki, Azərbaycan o ərazilərin tam quruculuq bərpa işlərini həyata keçirəcək. Necə ki, biz qısa bir müddət ərzində, təxminən üç il müddətində yüzlərə kilometr yüksək standartlara cavab verən avtomobil yolları, dəmir yolları, tunellər, körpülər inşa edib, beynəlxalq standartlara cavab verən iki hava limanı artıq istifadəyə vermişik, üçüncüsünü də yaxın günlərdə istifadəyə verəcəyik. Bütün bu gördüyümüz işlərlə, şəhərlərin, kəndlərin bərpası üçün baş planların hazır olması, hündür mərtəbəli binaların tikilməsi, infrastrukturunb tam bərpası üçün atdığımız addımlarla bağlı deyə bilərik ki, biz bu işləri Qarabağın hər yerində, Xankəndidə, Xocalıda, Xocavənddə həyata keçirəcəyik. Əslində, bu bir daha beynəlxalq ictgimaiyyətin diqqətinə çatdırılan mesaj idi ki, Azərbaycan özünün haqlı mövqeyindən zərrə qədər də olsa geriyə addım atmır" - deyə bildirdi.

X.Bəşirov qeyd etdi ki, orada reinteqrasiya ilə bağlı proseslər də baş verəcək, gerçəkləşəcək. Onun sözlərinə görə, biz lokal xarakterli antiterror tədbirləri ilə reinteqrasiya prosesinə də müsbət təsir etmiş olduq. "Niyə? Çünki Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasına ciddi əngəl törədən o cinayətkar, separatçı ünsürlər həm də amil olaraq psixoloji baxımdan gələcəkdə Azərbaycan xalqı ilə erməni əsilli vətəndaşların bir yerdə yaşamasına da ciddi əngəl törədirdilər. Çünki insanların psixoloji durumunda onlar rol oynayırdı və insanlar birgə yaşayışı qəbul edə bilmirdi"-deyə X.Bəşirov hesab edir ki, Qarabağda hüquqi dövlət quruculuğu prosesinin başlanması vətəndaş cəmiyyətinin formalaşmasına da ciddi təsir göstərəcək. O, qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə qalib gəldik, bu da torpaqlarımızda hüquqi dövlət quruculuğu prosesinin daha sürətlə inkişafına imkan verdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**